# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 186 (1314) 8 oktyabr - 10 oktyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# Muğanda bir ünvan var...



"... Sahibkarlığı inkişaf etdirmək üçün hər il mənim rəhbərliyimlə geniş müşavirə keçirilir, həm siyasi dəstək verilir, həm iqtisadi məsələlər öz həllini tapır. İnfrastruktur layihələri, - elektrik stansiyaları, kənd yolları, içməli su layihələri, - bütün bu layihələr ölkəmizin çoxşaxəli inkişafını təmin edir və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsidir.".

*Azərbaycan Respublikasının Prezidenti*
*İlham Əliyev*

Coğrafi baxımdan Azərbaycanın bərəkətli torpaqlarından birində yerləşən İmişli rayonu Azərbaycan müstəqillik əldə etdikdən sonra öz imkanlarını yeni dövrün tələblərinə uyğun qurmağa başladı. Belə ki, bütünlüklə kənd təsərrüfatı rayonu kimi mövcud olan və bütün təsərrüfat subyektləri də məhz bu istiqamətdə fəaliyyət göstərən İmişli rayonu artıq həm də sənaye sektorunun inkişafı ilə diqqəti çəkməyə başladı. Necə deyərlər, kənd təsərrüfatı ilə sənaye bu rayonda qoşa addımlamağa, çiyin-çiyinə dayanmağa başladı. Üstəlik də bu qoşalıq özü ilə bahəm həm də rayonda sahibkarlığı, biznesi, yeni iş yerlərinin açılması və maddi durumun yaxşılaşdırılması üçün axtarışlar meydanı gətirdi. Hər kəs əvvəlki kimi bir istiqamtə, yəni kənd təsərrüfatına deyil, həm də sənayeyə, həm də biznesə maraq gböstərməyə, qurub-yaratmağa kökləndi. Təbii ki, bütün bunların kökündə Azərbaycan insanına verilən dövlət dəstəyi xüsusilə hər birimizin prezidenti olan cənab İlham Əliyevin diqqət və qayğısı oldu.

Bu gün İmişli rayounun iqtisadi inkişafını nəzərdən keçirəndə bu bölgənin regionların inkişafına dair dövlət proqramında öz yerini mükəmməl bir şəkildə ifadə etdiyini və əldə olunun nəticələrin də məhz həmin proqramdan qaynaqlandığı bəlli olur. birmənalı şəkildə etiraf etmək lazımdır ki, bu gün biznes və sənaye bölgəsinə çevrilən, üstəlik də hər gün yenilləşən, abadlaşan İmişlidə təkcə zahiri görkəm deyil, həm də insanların özünün Azərbaycana, bütöv dünyaya baxışı yeniləşir, təzələnir. Yəni İmişli sakinləri dünyanın inkişaf tempinə, dünya adamının dünyaya baxışına özünün yaradıcı baxışını da, yaradıcı yanaşmasını da əlavə edərək həm yaşadığı bölgəni, həm də öz həyatını yeniləşdirib daha da maraqlı edir.

Bütün bunlar ayrı-ayrı sahələr üzrə nəzərdən keçiriləndə onda məlum olur ki, bu gün İmişlidə köklü dəyişikliklərin baş verməsi həm ölkə prezidentinin diqqət və qayğısının, həm də rayon rəhbərliyinin işgüzarlığının, peşəkarlığının bəhrəsidi. Elə rayon icra hakimiyyətinin başçısı Vilyam Hacıyevin 2016-cı ilin arxada qalan dövrü ərzində ötən il qazanılan bütün uğurların xeyli yüksəlmişdi. Mətbuata açıqlama verən icra hakimiyyətinin başçısı cənab Hacıyev bildirmişdi ki, 2015-ci ildən başlayaraq İmişli rayonu öz xərclərini birmənalı şəkildə özü ödəyir və artıq bu rayon dövlət datasiyasından asılı deyildi.

Bəli, Muğan düzündə yerləşən, həmçinin Araz çayının pıçıltılarını nəğmələrə çevirməyi bacaran İmişli sakinləri indi fəxrlə deyə bilərlər ki, onların yaşadığı şəhərdə və bölgədə böyük iqtisadi uğurlara imza atılıb. Belə ki, görülmüş qətiyyətli və ciddi tədbirlər nəticəsində İmişlidə inkişafın özəl moldeli yaradılıb. Və indi bu cənub regionu öz modeli ilə digər bölgələrə nümunə olmağa başlayıbdı. Yəni özü-özünü təmin edən, özü-öz xərclərini öldəyən İmişli rayonu 2014-2015 ci illərdə öncə aparılan abadlıq işlərinin miqyasına görə də diqqəti cəlb etmişdi. doğrudur, bu gün də həmin təmir-abadlıq işləri davam etdirilir. Amma görülən işlərin ümumi mənzərəsi ondan xəbər verir ki, rayon icra hakimiyyəti, onun başçısı və komandası fəaliyyət üçün konkret proqram müəyyənləşdirmiş və həmin proqram əsasında da köklü işlər görməyə müvəffəq ola bilmişdi.

Yol tikintisi sahəsində uzun illər mövcud olan problem bu gün demək olar ki, ortadan qaldırılmış, İmişli-Bəhrəmtəpə yolu, eləcə də İmişli-Mirili-Qaravəlli avtomobil yolu təmir edilib istifadəyə verilmişdi. Burada rayona yolu düşənlərin həmişə narahatlıqla gileyləndiyi bir məqamı da diqqətə çəkmək lazımdı. Yəni İmişli rayonunun giriş və çıxış yollarındakı bərbadlıq uzun müddət mətbuatın da tənqid ünvanı olmuşdu. Bu gün isə həmin problem demək olar ki, yoxdur. Bu işlərlə birlikdə rayon ərazisindən keçən dövlət əhəmiyyətli magistralın, yəni Hacıqabul-Bəhrəmtəpə yolunun 40 km-lik hissəsi İmişli ərazisində tamamilə bərpa olunmuşdu. Eləcə də rayonun biri neçə böyük kəndini birləşdirən Sərxanlı-Boşçallar-Cəfərli-Əliqulular, eləcə də Muradxanlı ərazilərini birləşdirən və uzunluğu 23 km olan asfalt-beton yol bütünlüklə, özü də yüksək keyfiyyətlə təmir olunmuşdur. Yolların təmir və bərpası, yenidən çəkilməsi işi bu gün də uğurla davam etdirilir. Çünki yol mədəniyyətin göstəricisidir və imişlilər artıq uzun zaman həmin o yol problemlərini yaşadıqlarından bu gün yol tikintisinə daha canıyanlıqla yanaşaraq onun keyfiyyətli və uzunömürlü olmasına çalışırlar.

Yolla bağlı görülən işlərdə respublikamızın, eləcə də İmişli rayonunun mütəxəssislərinə xarici şirkətlər də, xüsusilə Türkiyənin "Kolin" şirkəti yaxından köməklik göstərir. Bu da həm təcrübənin artması mənasında, həm də işin daha keyfiyətli görülməsində öz sözünü deyib, təsirini göstərir. Təbii ki, təkcə magistralların, kənd və şəhərarası yolların deyil, həm də küçə və səkilərin də yenidən qurulması, onların abadlaşdırılması işi də İmişli şəhərində xüsusilə diqqət mərkəzində dayanır. Əgər bu rayona, daha doğrusu, İmişli şəhərinç yolunuz düşsə, siz də abadlığın canlı şahidinə çevriləcəksiniz. Üzlük daşlarından, təmetlərdən və digər tikinti materiallarından istifadə edən imişlilər səkiləri, meydanları daha diqqətçəkən və səliqəli duruma gətirirlər. Xüsusilə kanalizasiya və yağış sularının axıdılması üçün xüsusi xüsusi novların çəkilməsi burada diqqət mərkəzində olan işlərdən biridi. Rayon mərkəzində müasir bir mənzərənin yaradılması, yeni salınan park və istirahət zolaqlarının həm dizaynı, həm də buradakı qurğbuların, yaşıllıqların yetərincə olması zövq oxşayır. Əkilən ağaclapr və gül kolları həmin parklara və istirahət guşələrinə sanki əlavə bir gözəllik bəxş edir.

*(Ardı var)*

**Əbülfət MƏDƏTOĞLU**